**UOT 791.43/.45**

*DOI: 10.25045/ASUCAAI.2025.42*

# SÜNİ İNTELLEKT KİNODA: GƏLƏCƏYƏ BAXIŞ

**Pərvanə Həsənova İlham qızı**
Doktorant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan.
parvanadop@gmail.com

**Xülasə**

Sürətlə dəyişən və yenilənən texnologiyalar dövründə süni intellekt həyatın ayrılmaz bir tərkib hissəsinə çevrilmişdir. Hər ötən gün o daha çox inkişaf edir, daha çox öyrənir və daha çətin tapşırıqların öhdəsindən gəlməyi bacarır. Hələ bir neçə il əvvəl fantastik filmlərdə gördüyümüz texnologiyalar artıq bugün heç də fantastik görsənmir və əksinə artıq tam olaraq böyük kütlənin istifadəsinə verilmişdir. Süni intellekt vasitəsilə ən bəsit məsələlərdən başlayaraq qəliz intellektual tapşıqlara kimi həll etmək mümkündür. Məsələn, tərcümə işləri, hər hansı informasiyanın tapılıb emal edilməsi, sənəd tərtibi kimi problemlər artıq süni intellekt sayəsində xeyli sadələşib.

Süni intellektin incəsənətin müxtəlif sahələrinə daxil olduğu da açıq aydın göz qabağındadır. Hal-hazırda Sİ texnologiyası ssenari yazmaq, musiqi bəstələmək, xüsusi effektlər yaratmaq və hətta aktyorların vizual rekonstruksiyasını təmin etmək üçün istifadə olunur.

**Parvana Hasanova**

## Artificial Intelligence in Cinema: A Look into the Future

**Abstract**

In the era of rapidly changing and evolving technologies, artificial intelligence has become an integral part of life. With each passing day, it continues to develop, learn, and handle increasingly complex tasks. Just a few years ago, the technologies we saw in science fiction movies no longer seem fantastical today; on the contrary, they have already become widely accessible to the public. With the help of artificial intelligence, it is possible to solve both simple problems and complex intellectual tasks. For example, processes such as translation, searching for and processing information, and document drafting have become significantly easier thanks to AI.

It is also evident that artificial intelligence is making its way into various fields of art. Nowadays, AI technology is used for scriptwriting, composing music, creating special effects, and even enabling the visual reconstruction of actors.

**Парвана Гасанова**

## Искусственный интеллект в кино: взгляд в будущее

**Аннотация**

В эпоху быстро меняющихся и обновляющихся технологий искусственный интеллект стал неотъемлемой частью жизни. С каждым днем он развивается, обучается и справляется с все более сложными задачами. Еще несколько лет назад технологии, которые мы видели в

фантастических фильмах, уже сегодня не кажутся фантастикой, а наоборот, стали доступными для широкой аудитории.

С помощью искусственного интеллекта можно решать как самые простые вопросы, так и сложные интеллектуальные задачи. Например, такие процессы, как перевод текстов, поиск и обработка информации, составление документов, значительно упростились благодаря ИИ.

Очевидно, что искусственный интеллект активно проникает в различные сферы искусства. В настоящее время технологии ИИ используются для написания сценариев, создания музыки, разработки спецэффектов и даже визуальной реконструкции актеров.

**Açar sözlər:** kino, süni intellekt, süni zəka, müasir texnologiya, incəsənət.
**Keywords:** cinema, artificial intelligence, modern technologies, art
**Ключевые слова:** кино, искусственный интеллект, технологии, искусство, искусственный разум

Kinematoqrafda süni intellekt məhfumu hələ özü yaranmamış zamanlardan araşdırılır və hər zaman auditoriyanın maraq sahəsində olub. Süni intellekt uzun illərdir ki, kino sənayesində geniş şəkildə təsvir edilir. Reallıqda hələ tam mənası ilə müstəqil düşünən maşınlar mövcud olmasa da, kino dünyası bu texnologiyanı müxtəlif aspektlərdən araşdırır və tamaşaçılara həm ümidverici, həm də qorxulu ssenarilər təqdim edir. Bu məqalədə süni intellektin kino sahəsində necə əks olunduğunu və cəmiyyətə hansı mesajlar verdiyini araşdıracağıq.

Süni intellekt kinoda əsasən üç fərqli formada təqdim edilir: **üsyankar maşınlar, dost və köməkçi texnologiya, insanabənzər robotlar.**

Üsyankar maşınlar silsiləsinə aid olan filmlərə nəzər salsaq ən parlaq nümunələr The Terminator (1984) və The Matrix(1999) bədii filmləridir. Bu filmlər insan və maşınlar arasında olan münaqişəni göstərir.

Ötən əsrin 80-ci illərində hələ sürətli kompyuterlərin belə mövcud olmadığı zamanlarda Ceyms Kameron “Terminator” filmini çəkməyi planlaşdırır. Təsəvvür etmək çətin olsa da heç bir kino istehsalat şirkəti bu mövzunu bəyənmir və aktuallığını şübhə altına alaraq filmi çəkməkdən imtina edirdi. Böyük səylərdən və uzun danışıqlardan sonra Hemdeyl şirkəti çox az büdcə ilə filmi istehsalata buraxır. Amma zaman göstərir ki, tamaşaçını bu mövzularla zallara cəlb etmək çox asandır. İnsanabənzər robotlar, süni intellekt, zaman səhayətləri filmin əsas mövzusudur və bugün bizə bəsit və primitiv görünə bilən, lakin dövrünə görə ilk olan xüsusi effektlərdən istifadə filmi baxımlı və maraqlı etmişdir. Büdcənin azlığı səbəbindən bir çox effektləri çox primitiv yolla əldə edən rejissor partlayış səhnələrində miniatürlər və hətta oyuncaq avtomobillərdən istifadə etmək məcburiyyətində qalmışdır. Lakin ilk addımı atan Terminator özündən sonra maşınların üsyanı, robotların insanlığa qarşı mübarizəsi mövzularına cığır açmış oldu.

1999-cu ildə lentə alınan The Matrix filmi nmaşınları insanlığı əsarətdə saxlamaq üçün yaratdığı illüzion dünya haqqında bəhs edir. Vaçovski qardaşları tərəfindən çəkilmiş bu film yüksək səviyyəli peşəkar vizual effeklətləri ilə seçilir. Hətta demək olar ki, öz zamanında The Matrix filmi kinematoqrafiyada bir çevriliş yaratdı. O göstərdi ki, döyüş filmləri özündə həmçinin dərin fəlsəfi fikir daşıya bilər [ Solomin N. https://www.kinopoisk.ru/film/301/reviews/ 27 oktyabr 2022].

**Dost və Köməkçi Texnologiya**; bu kateqoriyaya aid olan filmlər süni intellektin insan həyatını asanlaşdırdığı, ona yardımçı olduğu ssenariləri əks etdirir. Məsələn, 2013-cü ildə rejissor Spayk Cons tərəfindən ekranlaşdırılmış Her filmi süni intellektin insan həyatına təsirindən bəhs edir. Belə ki, Samanta adlı süni intellekt baş qəhrəmanın həmsöhbətinə çevrilərək onun həyatına emosional dəstək verir. Çətin zamanlardan keçən qəhrəman Samanta ilə canlı insan kimi ünsiyyət qurur, onunla hisslərini bölüşür və onda ruhuna yaxın dost tapır. Filmdə təkcə bir insanın deyil bütün cəmiyyətin artıq süni intellektlə sıx təmasda olduğu göstərilir və sürətlə inkişaf edən süni intellekt hətta özünə sui-qəsd mərhələsinə kimi gəlib çatır. Müəllif öz yozumuna görə cəmiyyətin gələcəyini bu yolla təsvir etmişdir.

Üçüncü qrup insanabənzər robotlar silsiləsindən olan filmlərə misal olaraq Ex Machina (2014) filminin adını çəkmək olar. Rejissor Aleks Qarlend tərəfindən lentə alınmış film insana bənzədilmiş robot qadın və onun insanlara münasibətindən bəhs edir. Insan xarakterlərini, vərdişlərini və reflekslərini mənimsəyən robot insanın zəif nöqtələrini öyrənərək manipulyasiya edir.

2001-ci ildə çəkilmiş A.I. Artificial Intelligence (Süni Zəka) filmində də insanlaşdırılmış robotlar haqqında söhbət açılır. Rejissor Stiven Spilberq tərəfindən ekranlaşdırılmış bu film robot uşağın özünü canlı insan hesab edərək anasının axtarışına çıxmağından bəhs edir. Onun real insan emosiyaları tamaşaçını empatiya duyğusuna yaxınlaşdırır.

Süni intellekt yalnız filmlərin mövzusu olmaqla qalmır, həm də kino sənayesində bir çox texniki prosesləri dəyişdirir.

Bundan əlavə, süni intellekt filmlərdə daha mürəkkəb və interaktiv hekayələr yaratmağa imkan verir. Deepfake texnologiyası ilə köhnə aktyorların gənc versiyalarını canlandırmaq və ya tamamilə süni aktyorlar yaratmaq artıq mümkündür.

Gələcəkdə süni intellektin kino sənayesində daha böyük rol oynayacağı gözlənilir. Mümkündür ki, tamamilə süni intellekt tərəfindən yaradılmış filmləri izləyək amma ona verilmiş qaydalar və qanunlar çərçivəsində. Ssenari və yaradıcılığa gəldikdə insan beyninin və şüurunun kreativ və emosional düşüncə tərzi əlçatmaz olduğundan çox da rəngarənglik və fərqlilik görəcəyimizi düşünmürəm. Süni intellektin etik və texnoloji aspektləri kino vasitəsilə müzakirə olunduqca, bu mövzuya maraq da artacaq.

Kino süni intellektin gələcəyi ilə bağlı müxtəlif baxış bucaqları təqdim edərək, bizi bu texnologiyanın imkanları və riskləri haqqında düşünməyə vadar edir. Gələcəkdə bu sahənin necə inkişaf edəcəyini və reallıqla filmlərdə təsvir olunanlar arasında hansı fərqlərin qalacağını görmək maraqlı olacaq.

**Ədəbiyyat siyahısı:**

*İnternet resursları*

1. Ex machina. https://www.kinopoisk.ru/film/197532/ 2015
2. Kramarenko A. https://www.kinopoisk.ru/user/5998128/
3. Aİ Artificial Intelligence. https://ru.wikipedia.org/wiki/%
4. Solomin N. https://www.kinopoisk.ru/film/301/reviews/ 2022
5. Her. https://www.kinopoisk.ru/film/577488/
6. Julia F. https://www.kinopoisk.ru/film/301/reviews/